Rayon xəbərləri

Xatirə tədbiri

Əfqan Abdurahmanov adına Qəbələ şəhər 3 saylı tam orta məktəbində Zərifə xanım Əliyevanın doğum gününə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdə çıxış edənlər oftolmoloq, əməkdar elm xadimi,-tibb elmləri doktoru, professor Zərifə Əliyevanın həyat və fəaliyyəti haqqında geniş məlumat vermiş və görkəmli alimin həyatına həsr edilmiş videoçarx nümayiş etdirilmişdir. Sonda şagirdlərin ifasında şeir kompozisiyası nümayiş etdirilmişdir.

Pasxa bayramı

Qəbələ rayonu Nic qəsəbəsindəki Cotari kilsəsində Pasxa bayramı qeyd edilmişdir. Bayram mərasimində çıxış edənlər Pasxa bayramının mahiyyətindən, dini ayinlərin icrası üçün yaradılan şəraitdən, azsaylı xalqlara dövlətin diqqət və qayğısından danışmış, onlara qarşı heç bir ayrı-seçkiliyin olmadığını, Nic kilsəsinin əsaslı şəkildə bərpasının ölkədə tolerantlığa gözəl nümunə olduğunu qeyd etmişlər. Sonda bayram münasibətilə şamlar yandırılmış, dualar oxunmuşdur.

Yolların bərpası

Qəbələdə abadlıq işləri çərçivəsində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi məqsədi ilə şəhər ərazisində Babək, Möhsün Sənani, Həsən Əliyev, Aqşin Ənvərli küçələrinə yeni asfalt örtüyü çəkilir.

Təmizlik aksiyası

Ətraf mühitin məişət tullantıları ilə çirklənməsinin qarşısının alınması və çirklənmiş ərazilərin təmizlənməsi məqsədilə keçirilən aksiyada Qəbələ Futbol Klubunun üzvləri fəal iştirak etmişlər. Aksiya çərçivəsində toplanılmış məişət tullantıları Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı tərəfindən ərazilərdən daşınaraq səliqə-səhman yaradılmışdır. Onu da qeyd edək ki, rayonumuzun təmizliyi daim diqqət mərkəzində saxlanılır.

"Açıq Mikrofon" aksiyası

Qəbələ rayon İcra Hakimiyyətinin və "Azəriqaz" İstehsalat Birliyinin təşkilatçılığı ilə Qəbələ rayon Zərifə Əliyeva parkında "Açıq Mikrofon" aksiyası keçirilmişdir. "Azəriqaz" İstehsalat Birliyinin əməkdaşları aksiyada iştirak edən sahibkarların və vətəndaşların qaldırdıqları problem və təklifləri dinləmiş, həllini nəzarətə götürmüşlər. Tədbirdə iştirak edən sahibkarlar onlara göstərilən dövlət dəstəyinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

Gənclər və İdman İdarəsində

Treninq keçirilmişdir

Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Qəbələ Mədəniyyət Mərkəzində Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və Yevlax rayonlarından olan dövlət qulluqçularına "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və dövlət qulluğunda etik prinsiplərin rolu" mövzusunda treninq keçirilib.

Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov çıxış edərək qonaqları salamlamış və treninqin keçirilməsinin məqsəd və vəzifələri barədə məlumat vermişdir.

Daha sonra Gənclər və İdman Nazirliyinin baş məsləhətçisi Namiq Abdullayev "Korrupsiya ilə əlaqədar hüquqpozmalar və dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda etika anlayışı, etikanın dövlət qulluğunda əhəmiyyəti, etik davranış qaydaları haqqında yerli və beynəlxalq sənədlər, etik davranış qaydalarının növləri, etik davranış qaydalarının həyata keçirilməsinin təmin olunması barədə təlim iştirakçılarına məlumat verilib.

Treninqin sonunda korrupsiyaya qarşı mübarizə və etik davranış qaydaları mövzusunda aktual məsələlərin müzakirəsi aparılıb və iştirakçıların sualları cavablandırılıb.

Rayon birinciliyi

Qəbələ Rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı və Rayon Təhsil şöbəsinin dəstəyi ilə Qəbələ şəhər 3 saylı tam orta məktəbdə gənclərin hərbi xidmətə yaz çağrışına həsr edilmiş "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə rayon birinciliyi keçirilmişdir. 100 metr məsafəyə qaçış, turnikdə dartınma və qumbara atma üzrə keçirilən birincilikdə rayonun tam orta məktəblərindən 18 komanda iştirak etmişdir. Yarışın yekun nəticəsinə əsasən Vəndam qəsəbə 1 saylı tam orta məktəbin komandası I, Əmirvan kənd tam orta məktəbin komandası II və Qəbələ şəhər 2 saylı tam orta məktəbin komandası III yeri tutmuşlar. Qalib komandalara Gənclər və İdman idarəsinin diplomları təqdim edilmişdir. Birinci yeri tutmuş Vəndam qəsəbə 1 saylı tam orta məktəbin komandası Respublika çempionatının zona mərhələsində iştirak etməyə vəsiqə qazanmışdır.

"Nə, harada, nə vaxt?"

Qəbələ Rayon Gənclər və İdman İdarəsi və İsmayıllı İntelektual Oyunlar Klubunun təşkilatçılığı ilə Qəbələ şəhər 1 saylı tam orta məktəbdə "Qalib Gəncliyimizin Zəfər Kuboku" adlı layihə çərçivəsində "Nə, harada, nə vaxt?" İntellektual Oyunu üzrə gənclər arasında rayon birinciliyi keçirilmişdir. Rayon birinciliyində 10 komandadan ibarət gənclər öz bilik-bacarıqlarını və intellektual səviyyələrini sınamışlar. Yarışın yekununda Məmmədağalı kənd tam orta məktəbin komandası I yer, Mirzəbəyli kənd tam orta məktəbin komandası II yer və Qəbələ şəhər 1 saylı tam orta məktəbin komandası III yerə çıxmışdır. Qalib komandalara diplomlar təqdim edilmişdir. 1-ci yerin qalibi Məmmədağalı kənd tam orta məktəbin komandası Respublika turuna vəsiqə qazanmışdır.

QƏBƏLƏ
Qəbələ rayonunun İctimai-siyasi qəzeti
qəzetinə
2022-ci ilin birinci yarısı üçün abunə yazılışı davam edir.
Yarımillik abunə qiyməti 15 manatdır.
Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.
Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).
Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56

İTMİŞDİR

Qəbələ şəhər sakini **Manafov Elşad Arzu oğluna** məxsus 36 Q-032 nömrə nişanlı "2PTS" markalı traktor yedəyinin QT-36 9286 saylı **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Bakı şəhər Xətai rayon R. Bağırov 36/14 v də yaşayan **Rəsulova Rüxsarə Əhməd qızına** məxsus Mitsubishi Pajero markalı maşının 77 CR 207 nömrəli **qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Yenikənd sakini **Hüseynov Emin Həsən oğluna** məxsus Sürücülük vəsiqəsi və 50 DM 159 nömrə nişanlı Jiquli VAZ-2106 markalı nəqliyyat vasitəsinin **Qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Mıxlıqovaq kənd sakini **Qəmbərov Qəmbər Mayıl oğluna** məxsus, 14.03.2017-ci il tarixdə verilmiş Yeni Azərbaycan Partiyasının **üzvlük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon səhiyyə kollektivi Poliklinika şöbəsinin həkim nevroloqu

KƏRİMOV CAVANŞİR VƏLYƏDDİN OĞLUNUN

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Redaktor Azad Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində Kərimli Etibar Ələsgər oğlu Unibank CB mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1400